

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 120 (24.257)

*8 iyul 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan-Albaniya əlaqələrində dostluq və qardaşlığa əsaslanan dinamika yaradılıb

### *Albaniya Prezidenti Bayram Beqay ölkəmizə rəsmi səfər edib*

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Albaniya Respublikasının Prezidenti Bayram Beqayın iyulun 7-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Albaniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Prezidenti Bayram Beqayı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Albaniya Prezidentinə raport verdi.

Prezident Bayram Beqay Azərbaycan əsgərlərini salamladı.

Azərbaycan və Albaniya prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Albaniya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Albaniya Prezidentinə, Albaniya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Albaniya Prezidenti Bayram Beqayın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

* * *



İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü keçirilib.



* * *

İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Albaniya Respublikasının Prezidenti Bayram Beqayın geniş tərkibdə görüşü olub.

Qonaqları salamlayan Prezident **İlham Əliyev** dedi:

– Cənab Prezident, hörmətli qonaqlar, bir daha xoş gəlmisiniz. Cənab Prezident rəsmi səfərinizlə bağlı Sizi qəbul etməyimdən çox məmnunam. Əvvəlcə mənim ötən il Albaniyaya səfərim zamanı göstərilmiş qonaqpərvərliyə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Şadam ki, biz çox sıx dostluq münasibətləri qurmuşuq və ölkələrimiz arasında yüksək səviyyədə siyasi dialoqun olduqca yaxşı dinamikası var. Əlbəttə, bu, ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm amildir. Mən bu münasibətləri əla adlandırardım və bu, beynəlxalq təsisatlarda qarşılıqlı dəstəkdə, enerji və iqtisadi inkişaf sahələrində praktiki fəaliyyətdə özünü göstərir.

Biz artıq Sizinlə ikitərəfli gündəliyimizə, regional məsələlərə, təhlükəsizlik mövzusuna və əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardıq. İndi isə nümayəndə heyətlərinin iştirakı ilə bu dialoq davam edəcəkdir.

Çox məmnunam ki, hazırda Azərbaycanla Albaniya yaxın dost və qardaş ölkələr olaraq bir yerdə işləyir, əməkdaşlığımızın perspektivləri, həqiqətən də, parlaqdır. Çünki burada bizim dostluğumuz, qarşılıqlı maraq və gələcəklə, ikitərəfli münasibətlərin irəli aparılması və əməkdaşlığın gücləndirilməsi ilə bağlı aydın baxış kimi möhkəm təməl var. Əlbəttə, əməkdaşlığın əsasını təşkil edən mühüm amil enerji sahəsinin inkişafı məsələləridir və biz artıq Sizinlə bu məsələyə toxunduq və nümayəndə heyətlərinin iştirakı ilə bu görüşdə də bu müzakirəni davam edəcəyik. Çünki bizim bu istiqamətdə daha çox planlarımız var və bu məsələlər mənim Albaniyaya səfərim çərçivəsində, həm də digər rəsmi şəxslər səviyyəsində müzakirə edilib.

Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

Prezident **Bayram Beqay** dedi:

– Möhtərəm Prezident, əziz dost.

Bu gün Sizinlə burada, möhtəşəm Bakı şəhərində görüşməyimdən çox məmnunam. Eyni zamanda Sizə mənə və nümayəndə heyətinə göstərilən çox isti qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirirəm. Əminəm ki, görüşlərimizin intensivliyi iki ölkə arasında qardaşlıq ruhuna əsaslanan dostluq və əməkdaşlıq əlaqələrini gücləndirməklə bağlı sadiqliyimizi və birgə iradəmizi bir daha təsdiq edir. Son illərdə bu əməkdaşlıq həm siyasi, həm də iqtisadi sahədə dinamik şəkildə inkişaf edib. Sizin də qeyd etdiyiniz kimi, bizim əla münasibətlərimiz var və çalışmalıyıq ki, iqtisadi sahədə də münasibətlər əla olsun. Şəxsən Sizin ölkələrimiz arasında əlaqələrin tarixinin yeni səhifəsinə sadiqliyinizi və töhfənizi yüksək qiymətləndirirəm. Bu il biz diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik.

Bir daha təşəkkürümü bildirirəm.

* * *

İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi rəsmi səfər çərçivəsində qəbul etmək imkanından olduqca məmnunam. Biz dəfələrlə həm Bakıda, həm Tiranada görüşmüşük. İndi isə yenidən Bakıda rəsmi səfər zamanı görüşürük.

Biz Albaniya Prezidentinin rəsmi səfərinə çox böyük önəm veririk. Əminəm ki, səfər ölkələrimiz arasında sıx ikitərəfli münasibətləri gücləndirəcək. Mən, həmçinin bu fürsətdən istifadə edərək ötən il Albaniyaya səfərim zamanı mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərliyə görə cənab Prezident, Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən, həmçinin qeyd etmək istəyirəm ki, ötən il Albaniyanın Baş nazirini iki dəfə qəbul etdik və bu ilin martında Prezident Azərbaycana işçi səfərə gəlmişdi. Təkcə bu səfərlər əlaqələrimizin nə qədər sıx, dialoqumuzun nə dərəcədə fəal olduğunu nümayiş etdirir.

Biz dostluq və qarşılıqlı dəstəyə əsaslanan ikitərəfli əlaqələrimizdə çox xüsusi dinamika yaratmışıq. Biz beynəlxalq təşkilatlarda fəal çalışırıq, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında və İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə dəstək veririk. Eyni zamanda biz Azərbaycanın olmadığı təşkilatlarda ölkəmizi dəstəklədiyinə görə Albaniyaya çox minnətdarıq. Ötənilki Frankofoniya Sammitində Azərbaycana verdiyi dəstəyə görə mən cənab Prezidentə və Albaniya hökumətinə artıq öz minnətdarlığımı bildirdim. O vaxt Frankofoniya təşkilatının üzv dövlətlərindən biri yekun sənədə bir bəndi əlavə etmək və qəbul etdirməyə cəhd göstərdi. Bu, anti-Azərbaycan mahiyyəti olan bənd idi.

Albaniya həmin bəndi bloklayan ölkə oldu. Həmin addım dostluğun, eləcə də ölkələrin ərazi bütövlüyü və suverenliyi kimi beynəlxalq hüququn əsas prinsiplərinə qəti sadiqliyin təzahürü oldu. Hətta Azərbaycan özünü müdafiə etmək fürsətinə malik olmadığı təşkilatlarda belə bizim Albaniya kimi qardaş ölkəmiz var və o bu dəstəyi verdi. Buna görə biz çox minnətdarıq.

Bu gün biz, əlbəttə, ölkələrimiz arasında gələcək siyasi münasibətləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətimizi müzakirə etdik. Eyni zamanda birmənalı olaraq gündəliyimizdə duran ticari, iqtisadi məsələləri, sərmayə imkanlarını nəzərdən keçirdik. Mən bir daha vurğuladım ki, Azərbaycan sərmayədarları Albaniyada istər turizm, istər kənd təsərrüfatı və ya hər hansı digər sahədə sərmayə layihələrini ciddi araşdırmağa hazırdırlar. Hesab edirəm ki, gələn aylarda bizim bu haqda daha çox məlumatımız olacaq və həmçinin münasibətlərimizdə yeni səhifə açılacaq. Bu vaxta qədər əməkdaşlığımızın əsas meyarı enerji sektoruna aid olub. Həmin əməkdaşlıq nəinki ölkələrimiz, o cümlədən böyük sayda digər ölkələr, xüsusən də Cənub Qaz Dəhlizinin hissəsi olan TAP üçün əhəmiyyətlidir. Həmin boru kəməri Albaniyanın ərazisindən keçir. Hazırda o, enerji təhlükəsizliyinin mənbəyidir, Azərbaycan və Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işini, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədini nəzərə alsaq bütün bunlar, təbii ki, ölkələrimiz arasında sıx əməkdaşlıq üçün mühüm meyarlardır. Çünki bir çox Avropa ölkələri üçün enerji təhlükəsizliyi, həmçinin Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilir. Həmin ölkələrin sayı artır. Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. Həcmlər artır və onun coğrafiyası genişlənir.

Bu ilin sonunadək biz Avropa İttifaqına üzv olan daha çox sayda ölkələrin Azərbaycandan təbii qazı alacağını gözləyirik. Həmçinin əvvəlki təmaslarımızda müzakirə olunan mövzulardan biri Albaniyanın qazlaşdırılması layihəsi idi və sınaq layihəsi seçilmişdi. Bu gün bizə nümayəndə heyətlərinin üzvləri tərəfindən məlumat verildiyi kimi, işlər cədvələ uyğun gedir və ilin sonunadək bizdə artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması olacaq. Bundan sonra isə ümid edirəm ki, biz dərhal investisiyalara başlayacağıq. Bu, qazpaylayıcı şəbəkəsini qurmaq üçün Albaniyaya yatırılacaq xalis Azərbaycan investisiyası olacaq. Həmçinin biz infrastrukturumuzu Albaniyadan qonşu ölkələrə necə genişləndirəcəyimizi də müzakirə etdik.

Bizim indi Tiranada səfirliyimizin olması məni çox sevindirir. Bu, həmçinin mənim Albaniyaya səfərim zamanı qəbul edilmiş qərar idi və Bakıya qayıdan kimi növbəti gün qərar qəbul edilmişdir. Tiranadakı səfirliyimiz artıq öz fəaliyyətinə başlayıb. Bu, ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün çox güclü qarşılıqlı siyasi iradənin mövcud olduğunu göstərir və tərəfimizdən qəbul edilən qərarların hamısı icra olunur.

Əminəm ki, cənab Prezidentin bugünkü səfərinə də eyni məsələni şamil etmək olar. Biz müntəzəm görüşlərin keçirilməsi barədə

*Ardı 2-ci səhifədə*

razılığa gəldik. Hər bir görüşdə biz hansı işlərin görüldüyünə nəzər salacağıq və gələcək addımlarımızı planlaşdıracağıq.

Bir daha, cənab Prezident, xoş gəlmisiniz. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzu edirəm.

***

Sonra Albaniya Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Bayram Beqayın bəyanatı**

– Təşəkkür edirəm, hörmətli Prezident.

Möhtərəm Prezident Əliyev, səmimi qarşılamaya və qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Azərbaycanda olmaq və bir daha dostum Prezident Əliyevlə görüşmək məndə böyük məmnunluq hissi doğurur. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü qeyd olunur. Hesab edirəm ki, bu əlaqələrdən fərəhlənmək üçün bizim bir çox səbəbimiz var. Bu əlaqələr bu gün həmişəkindən daha yaxşı səviyyədədir. Buna görə bu əlaqələri daha da gücləndirmək üçün zəruri töhfə verdiyi üçün Prezident Əliyevə minnətdarlığımı bildirirəm. Ötən il Prezident Əliyev Tiranani ziyarət etdi və bu, Azərbaycan Prezidentinin Albaniyaya ilk səfəri idi.

Mən məmnunam ki, səfərin təsiri dərhal öz əksini tapdı. Çox çəkmədi və Azərbaycan parlamenti Tiranada səfirlik açmaq barədə qərar qəbul etdi. Eyni qaydada Albaniya da 2023-cü ildə Bakıda səfirliyin açılması ilə bağlı analoji qərar qəbul etdi. Hər iki qərar ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq, artıq mükəmməl olan əlaqələri, yüksək səviyyəli siyasi dialoqu daha da gücləndirəcək, eləcə də iqtisadi əməkdaşlığı və digər məsələləri daha da təşviq edəcək.

Bizim dostluğumuzun 30 illiyini qeyd etmək üçün bir çox səbəblərimiz var. Mən iki ölkənin yaxınlaşması istiqamətində atılmış bəzi başqa uğurlu addımları Prezidentin diqqətinə çatdırdım. Mayda Albaniya ilə Azərbaycanın iqtisadi, sənaye və texnoloji əməkdaşlıq üzrə birgə işçi qrupunun iclası keçirildi. Bu işçi qrupu həyati əhəmiyyət kəsb edən digər sahələrdə də əlaqələri daha da dərinləşdirmək baxımından mühüm addım hesab olunur. Bu səbəbdən, bu işçi qrupunun əsasında 2024-cü ildə Bakıda keçiriləcək birgə hökumətlərarası komissiyanın yaradılmasına dair razılıq konstruktiv ruhun və iki ölkə arasında



mövcud olan anlaşmanın aydın təcəssümüdür. Bundan əlavə, bu ilin ilk ayında mənim təcrübələrin, ölkələrimizin və planetin gələcəyinə dair qabaqcıl baxışların mübadiləsi baxımından digər mühüm təşəbbüs olan Qlobal Bakı Forumunda iştirak etmək imkanım oldu. Prezident Heydər Əliyevin 100 illiyində Azərbaycanın inkişafı və gücləndirilməsinə dair müstəsna baxışı ölkənizə səfər edən hər kəs tərəfindən hiss olunur. Onun Azərbaycan üçün etdikləri tarixin yaddaşında əbədi yaşayacaq və ölkənizin gələcək inkişafına xidmət edəcək.

Möhtərəm Prezident Əliyev, Albaniya və Azərbaycan enerji sektorunda əməkdaşlıqla bir-birinə sıx bağlıdır. TAP artıq birləşmiş uğur hekayəsidir. Albaniyanın TAP-dan faydaları həm iqtisadi baxımından, həm də regional enerji çıxışı və qovşağı kimi strateji əhəmiyyətinin güclənməsi baxımından çox olub. Adriatik-İonik qaz kəməri Albaniyanın regionda qazpaylayıcı kimi roluna daha çox töhfə verəcək. Mən Albaniyanın Azərbaycanla sıx əməkdaşlıq şəraitində ölkənin qazla təchiz olunması çərçivəsində qəti addımlar atmağa hazır olduğunu Prezident Əliyevin bir daha diqqətinə çatdırdım.

Albaniyanın qaz tranziti ölkəsi olması artıq reallıqdır. Albaniyanın qaz qəbul edən və nəql edən ölkə olması məqsədini qarşımıza qoymuşuq. Ölkəmiz buna nail olmağa və əməkdaşlığı daha da dərinləşdirməyə sadiqdir. Mən Prezident Əliyevə bildirdim ki, Albaniya Azərbaycanın regional enerji layihələrinin inkişafına artmaqda olan diqqətini alqışlayır və bu, Qərbi Balkan ölkələrini daha da yaxınlaşdıracaq. Eyni zamanda bu onların enerji təhlükəsizliyini gücləndirəcəkdir.

Bir az əvvəl biz, həmçinin xarici siyasətimizə dair vacib məsələlərə toxunduq. Mən Prezidentə bildirdim ki, ötən həftə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında keçirilən görüşləri diqqətlə izləyirdim. Albaniya Cənubi Qafqazda etibarlı tərəfdaşlar və beynəlxalq təşkilatların vasitəçiliyi ilə uzunmüddətli sülhün bərqərar olunmasını dəstəkləyib və dəstəkləyəcəkdir. Prezident Əliyevə dedim ki, Albaniya hər zaman Azərbaycanın ərazi bütövlüyünü və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını dəstəkləyib. Hətta Qərbi Balkan regionunda da dialoq vacibdir ki, biz bir-birimizə keçmişin kini deyil, gələcəyin imkanları baxımından yanaşaq. Mən Qərbi Balkanlarda regional sabitliyin zəruri element olması ilə bağlı əminliyimi ifadə etdim. Serbiya və Kosovo mübahisənin həlli və aralarında yeni əməkdaşlıq ruhunun yaradılması ilə bağlı danışıqlarında iştirak edən tərəflərdir. Tərəflərin öz aralarında və beynəlxalq forumlarda irəli sürdükləri arqumentlərə hörmət dayanıqlı sülhün bərqərar olması üçün istiqamətverici məqamlar olmalıdır. Münaqişə əvəzinə firavanlıq – bu, ikitərəfli və regional tərəqqi üçün kompas olmalıdır. Bu nə qədər tez baş versə, bizim xalqlarımız ondan bəhrələnəcək.

Biz Prezident Əliyevlə birlikdə Ukraynadakı müharibəni müzakirə etdik. Ukraynanın bərpasına həsr edilmiş konfransda ölkələrimizin iştirakı Ukraynanı dinc və inkişaf etmiş görməyimizlə bağlı iradəmizin göstəricisidir. Bu məqamda biz bir daha Ukraynanın ərazi bütövlüyünə dəstəyimizi ifadə edirik. Ağır dövrdə kömək göstərilməsi xalqlar və dövlətlər tərəfindən unudulmayan jestdir. 2019-cu ilin noyabrında baş vermiş faciəvi zəlzələdən sonra Azərbaycanın Albaniyaya olan dəstəyi də həmin qəbildəndir. Mən Prezident Əliyevə həmin çətin günlərdə yanımızda olduğuna görə bir daha təşəkkürümü bildirdim. Əsl dost dar gündə tanınar.

Albaniya və Azərbaycan arasında əməkdaşlıq həm də beynəlxalq təşkilatlar çərçivəsində özünü əks etdirir. Mən Prezident Əliyevə əminliyimi ifadə etdim ki, əməkdaşlığın hazırkı çox yaxşı tempi gələcəkdə də saxlanılacaq. Albaniyada tezliklə Azərbaycan mədəniyyət həftəsi təşkil ediləcək. Əminəm ki, bu ay Albaniyanın şəhərlərinin dünyanın hər yerindən gələn turistlərlə dolu olan bir vaxtda Azərbaycan mədəniyyət həftəsi bayram abhavasında keçəcəkdir. Bu isə mədəniyyətin xalqları və ölkələri nə dərəcədə yaxınlaşdırdığının təzahürü olacaqdır.

Turizmə gəldikdə, ölkələrimiz bu sahəni prioritet və iqtisadiyyatın çox vacib sektoru hesab edir. Bu səbəbdən əməkdaşlığın inkişafı və turizm baxımından Azərbaycanın sərmayə qoyuluşu arzuolunandır. Viza rejiminin ləğvi xalqlarımızın yaxınlaşdırılmasının daha bir yoludur. Qeyd etdiyim kimi, Prezident Əliyev vədlərini reallığa çevirən şəxsdir və o bu gün mənə söylədi ki, bu, tezliklə həll ediləcəkdir. Təşəkkür edirəm, cənab Prezident.

Hörmətli əziz Prezident, Sizin Tiranaya səfərinizdən sonra ölkələrimiz qarşılıqlı xoş niyyət və əməkdaşlıq ruhunda vədlər və sadiqlik ifadələrini konkret fəaliyyətə çevirməyə müvəffəq olub. Sizin səfəriniz, mənim bugünkü səfərim və son dövrdə yüksək səviyyəli dövlət rəsmilərimizin həyata keçirdikləri digər səfərlər ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə müsbət təkan verir.

Cənab Prezident, yekunda icazə verin yüksək qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirim. Bakıda olmaq, həqiqətən də, məmnunedicidir. Sağ olun.

* * *

İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Albaniya Respublikasının Prezidenti Bayram Beqayın və birinci xanım Armanda Beqayın şərəfinə rəsmi lanç verilib.

**AZƏRTAC**

## Azərbaycan Respublikasının fövqəladə hallar naziri Naxçıvanda vətəndaşları qəbul edib



*Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov Naxçıvanda vətəndaşları qəbul edib. Bu barədə Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.*

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Heydərov 7 iyul 2023-cü il tarixdə Naxçıvan şəhərində, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binasında Naxçıvan Muxtar Respublikası sakinlərinin qəbulunu keçirib.

Bildirilib ki, nazir Kəmaləddin Heydərov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Sonra fövqəladə hallar naziri tərəfindən qəbul edilən muxtar respublika sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşları qəbul edib.

Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda ilk dəfə yerin təki sahəsinin istifadəyə verilməsi üzrə hərrac təşkil edilib



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən iyulun 7-də yerin təkinin istifadəyə verilməsi üzrə Naxçıvan şəhərində ilk dəfə hərrac keçirilib.

Hərracda 1 lot üzrə Naxçıvan Muxtar Respublikasının Babək və Culfa rayonları ərazisində yerləşən “Qoşaquldağ” (Pircuvardüzü) qum yatağı satışa çıxarıldı. Başlanğıc qiyməti 15 min 180 manatdan başlayan yatağın istismar müddəti 15 ilədəkdir.

## “Dağ-mədən sahəsində mövcud imkanlar və perspektivlər” mövzusunda biznes-forum keçirilib



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə “Dağ-mədən sahəsində mövcud imkanlar və perspektivlər” mövzusunda biznes-forum keçirilib. Forumda ölkə ərazisində fəaliyyət göstərən iri və orta sahibkarlıq subyektlərinin və bir sıra dövlət qurumlarının nümayəndələri iştirak edib. Forumun gündəliyində bu bölgədə yerləşən faydalı qazıntı yataqları, yer təkinin hüquqi tənzimlənməsi qaydaları və sözügedən sahəyə investisiyanın təşviqi ətrafında mövzular yer alıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Naxçıvanın faydalı qazıntı yataqları barədə ətraflı məlumat verib. Bildirib ki, “2023-2027-ci illər üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı” 11 vacib prioritet istiqamət üzrə müəyyənləşib. Bunlardan biri də ətraf mühitin mühafizəsinin gücləndirilməsi, təbii ehtiyatlardan səmərəli istifadə olunmasıdır. Təbii sərvətlərdən istifadədə düzgün mexanizmin tətbiq olunması isə əsas məsələdir.

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Xanlar Mustafayev Naxçıvanın faydalı yataqları və tədbirin keçirilməsinin mühüm əhəmiyyətindən danışıb.

Forumda Geoloji Kəşfiyyat Agentliyinin əməkdaşı Şahin Ataşov və Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin əməkdaşı Elnur Həsənli müxtəlif mövzularda çıxış ediblər.

Tədbirdə sahibkarları maraqlandıran suallar cavablandırılıb.

**Gülcamal TAHİROVA**

## Naxçıvanda güzəştli kreditlərin verilməsinə başlanılıb

Naxçıvanda fəaliyyət göstərən sahibkarlar üçün “Naxçıvanda biznesin inkişafı üçün yeni fürsətlər” mövzusunda konfrans keçirilib. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu və “Bank Respublika”nın təşkilatçılığı ilə keçirilən konfransda Naxçıvan rəsmiləri, eləcə də muxtar respublikada fəaliyyət göstərən sahibkarlar daxil olmaqla, 100-dən çox şəxs iştirak edib.



Naxçıvan Biznes Mərkəzində keçirilən konfransda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev iştirakçılara Naxçıvanda iqtisadi sahədə mövcud vəziyyət, bölgənin iqtisadi potensialı, iqtisadi fəaliyyət sahələri üzrə həyata keçirilən tədbirlər və biznes mühiti barədə məlumat verib. Bildirib ki, “Naxçıvan Muxtar Respublikasının Sosial-İqtisadi İnkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın sürətləndirilməsinə və əlverişli biznes mühitinin formalaşdırılmasına mühüm zəmin yaradacaq. Naxçıvanda fəaliyyət göstərən bütün sahibkarlıq subyektlərinə və yeni yaradılacaq bizneslərə çox böyük güzəştlər veriləcək. Vurğulanıb ki, ölkədə fəaliyyət göstərən bankların Naxçıvanda filiallarının açılması ilə sahibkarların bank xidmətlərinə çıxışı daha da asanlaşacaq.

Sahibkarlığın İnkişafı Fondu idarə heyətinin sədri Osman Xəliyev Naxçıvanda sahibkarlar və investorlar üçün yaradılan yeni imkanlardan, eləcə də əlçatan və effektiv maliyyələşmə mexanizmlərindən söhbət açıb.

“Bank Respublika”nın idarə heyətinin sədri Tariyel İsmayılov bildirib ki, “Bank Respublika” Naxçıvanda real sektorun maliyyələşdirilməsində iştirak edən ən aktiv banklardan biridir və artıq Naxçıvanda güzəştli kreditlərin verilməsi prosesinə başlayıb.

Digər çıxışlar zamanı slaydlar vasitəsilə sahibkarları maraqlandıran məqamlara aydınlıq gətirilib.

Sonda kreditin əldə edilməsi ilə bağlı sahibkarları maraqlandıran məsələlər müzakirə edilib, onların mövcud mexanizmlə bağlı təklifləri öyrənilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda Duzdağ Fizioterapiya Mərkəzində aparılan müalicənin roluna və speleoterapiyaya həsr olunan respublika konfransı keçirilib



*Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş “Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya Mərkəzində aparılan müalicənin rolu və speleoterapiya” adlı respublika konfransı keçirilib.*

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və “AzəriMed” Qapalı Səhmdar Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, dahi şəxsiyyətə ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıqdan sonra “Duzdağ” otelinin konfrans zalında baş tutan tədbirdə iştirakçılar əvvəlcə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini anıblar.

Konfransda açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov qonaqları salamlayaraq qeyd edib ki, əsası dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan səhiyyə islahatları müstəqillik dövründə daha da inkişaf etdirilib, bu sahənin qanunvericilik bazası təkmilləşdirilib, əhaliyə göstərilən səhiyyə xidmətinin keyfiyyəti xeyli yüksəldilib. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövrü Naxçıvan səhiyyəsinin inkişaf mərhələsi kimi səciyyələnir. Göstərilən dövlət qayğısının nəticəsidir ki, hazırda muxtar respublikanın ən ucqar dağ kəndlərində belə müasir tələblərə cavab verən həkim ambulatoriyaları, feldşer-mama məntəqələri fəaliyyət göstərir. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində insanların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur.

Bildirilib ki, Azərbaycanın qədim diyarı olan Naxçıvanın rəmzlərindən biri də təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağdır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzu ilə deyil, həm də şəfaverici xüsusiyyətlərinə görə tanınmışdır. Dağın altına doğru 300 metr uzanan və divarları duz qayaları ilə örtülü Duzdağ Fizioterapiya Mərkəzinin dünyada bənzəri yoxdur.

Duzdağ şaxtalarında mövcud olan hava şəraiti, buranın quruluşu, dəniz səviyyəsindən yüksəkliyi, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı bronxial-astma və allergik rinit, pollinoz, xroniki bronxit və astmatik komponentli digər xəstələrin müalicəsinin səmərəliliyinə şərait yaradır.

Buradakı müasir infrastruktur, ixtisaslı həkimlərin və texniki heyətin pasiyentlərlə yaxından maraqlanması və digər servislər istər müalicə məqsədilə gələnlər, istərsə də onları müşayiət edənlər üçün yaradılan şəraitdən xəbər verir. Mərkəzdə 2 həkim, 19 orta, 25 kiçik tibb və xidmət işçisi qəbul olunan xəstələrə günboyu xidmət göstərir.



Samiq Sadıxov vurğulayıb ki, son vaxtlar dünyada ağciyər xəstəliklərindən ölüm hallarının sayı artmaqdadır və bu xəstəliklərlə mübarizə bütün səhiyyə təşkilatlarının diqqətindədir. Bugünkü konfransı keçirməkdə məqsəd ağciyərin xroniki obstruktiv xəstəliyi, bronxial-astma, allergik rinitlər, vərəmin və digər bu kimi xəstəliklərin müalicə yollarını müzakirə etmək, həmçinin Duzdağın möcüzəvi müalicəvi potensialını tanıtmaqdır. Konfransın keçirilməsinin həm də təcrübə mübadiləsi baxımından Naxçıvan pulmonoloq və allerqoloqları üçün mühüm hadisə olduğunu vurğulayan Samiq Sadıxov konfransın işinə uğurlar arzulayıb.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov bildirib ki, bu diyarın yerləşdiyi coğrafi mövqeyi, rəngarəng landşaftı, fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mədəniyyət abidələri, ekoloji cəhətdən təmiz qida məhsulları və müasir infrastruktura malik yaşayış məntəqələri burada turizmin bir çox növünün inkişafına zəmin yaradır. Zəngin təbii sərvətlərə malik olan Naxçıvan Muxtar Respublikası öz təbii müalicə obyektləri ilə də məşhurdur. Bu baxımdan təbii müalicə obyekti Duzdağ bir sıra xəstəliklərin müalicəsində əvəzsiz rola malikdir. Dünyanın bir çox yerlərindən buraya xəstələr müraciət edir.

Daha sonra çıxış edən “AzəriMed” QSC-nin Naxçıvan Muxtar Respublikası üzrə nümayəndəsi Tehran Əsgərli Naxçıvanda yerləşən Duzdağ Fizioterapiya Mərkəzi və buradakı təbii müalicənin effektiv nəticələri barədə iştirakçılara geniş məlumat verib. Qeyd edilib ki, burada tənəffüs orqanları xəstəliklərindən uğurla sağalmaq mümkündür. Hər il dünyanın bir çox yerlərindən tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən minlərlə insan buraya gələrək şəfa tapır.

Sonra konfrans elmi hissə ilə işini davam etdirib. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Pediatriya kafedrasının dosenti Sənubər Vəliyeva allerqik xəstəliklərin protokol terapiyası, M.Ə.Mirqasımov adına Respublika Uşaq Klinik Xəstəxanasının uşaq allerqoloq və immunoloqu, uzman doktor Röyalə Babayeva “Uşaqlardakı allerqik xəstəliklərə speleoterapiyanın təsirləri” və Naxçıvan Muxtar Respublika Xəstəxanasının Pulmonologiya bölməsinin müdiri, həkim-pulmonoloq Dilarə Abdullayeva “Bronxial-astmanın müalicəsində müasir yanaşmalar” mövzularında çıxış edərək konfrans iştirakçılarına ətraflı məlumat veriblər.



Konfransda bilik və təcrübə mübadiləsi aparılıb, suallar cavablandırılıb.

Konfransdan sonra qonaqların fikirlərini öyrəndik.

***Röyalə BABAYEVA – M.Ə.Mirqasımov adına Respublika Uşaq Klinik Xəstəxanasının uşaq allerqoloq və immunoloqu:*** “İlk olaraq konfransa dəvətə görə təşəkkürümü bildirirəm. Uzun müddətdir, Duzdağ ilə bağlı xəstələrin verdiyi suallar var idi. Onları daha çox uşaqlarda olan astma-bronxit xəstəliklərinin nəticələri maraqlandırırdı. Burada xəstəxana ilə tanışlıqda, xəstələrlə görüşdükdə, onlarla söhbət apardıqda bunun nəticəsini gördük. Özüm də araşdırdıqda, həqiqətən, gördüm ki, xroniki ağciyər xəstəlikləri olan uşaqlarda və böyüklərdə sağlamlığa doğru müsbət dəyişikliklər olub, ağciyərin funksiyalarında irəliləyişlər müşahidə edilir. Bundan sonra da bu araşdırmanı davam etdirməyi düşünürük. Daha çox bunu Duzdağ müalicəsindən öncəsi və sonrasını qarşılaşdırmaq yolu ilə aparmaq istəyirik. Buna görə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə daim birlikdə çalışacağıq”.

***Tehran ƏSGƏRLİ – “AzeriMed” QSC-nin Naxçıvan Muxtar Respublikası üzrə nümayəndəsi:*** “Ötən ilin sonlarından Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstəririk. Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında muxtar respublikanı tibbi ləvazimat və dərmanlarla təmin edirik. Düşünürəm ki, bu konfrans hər kəs üçün faydalı oldu. Bundan sonra belə konfransların tez-tez keçiriləcəyinə, Naxçıvanın imkanlarının daha geniş şəkildə təbliğ olunacağına inanıram”.

**✍ Ceyhun MƏMMƏDOV**

# Mədənçilik sənayesinin inkişafı, mineral-xammal resurslarından istifadə muxtar respublikanın iqtisadi tərəqqisinə öz töhfəsini verəcək

***Xanlar Mustafayev – Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən:*** – Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasında ilk dəfə hərrac üsulu ilə yataqların istifadəyə verilməsi ilə bağlı tədbir keçirildi. Hərracın 2 iştirakçışı oldu və şirkətlərdən biri ilkin start qiymətinin, təqribən, 2 qatı qədər qiymət təklifi ilə qalib elan edildi. Bundan



sonra onun sənədləşmə işləri aparılması ilə bağlı biz tərəfdən təqdimat həyata keçirildi və məsələ ilə bağlı qalib şirkətə ətraflı məlumat verildi. Bu hərracların təşkili ilə yataqların istifadəyə verilməsində məqsədimiz ondan ibarətdir ki, həm bu sahədə şəffaflığı təmin edək, həm də qanunvericiliyin tələblərinin icrası üçün biz öz üzərimizə düşən işləri yerinə yetirmiş olaq, eyni zamanda azad rəqabətli mühit formalaşdıraq. Bununla yanaşı, ətraf mühitdən istifadə ilə bağlı hesabatlığın təmin edilməsi zamanı vergi ödəmələrinin və digər ödənişlərin Nazirlər Kabinetinin müvafiq qərarı ilə qiymətləri müəyyən edilib. Hansı ki qum-çınqıl ehtiyatının 1 kubundan istifadəyə və yaxud gil yatağının digər xammal ehtiyatlarının 1 kubuna görə hansı ödəmələr həyata keçirilməsini nəzərdə tutur. Şübhəsiz ki, bütün bunların hamısı müvafiq qanunvericilik aktlarında təsbit edilmişdir. Bu hərracların silsilə tədbirlər formasında keçirməsi nəzərdə tutulur ki, mineral xammal ehtiyatları tələbatının ödənilməsində çətinliklər yaranmasın. Naxçıvan Muxtar Respublikasının mineral xammal ehtiyatlarının potensialının genişlənməsi ilə bağlı da artıq bu il dövlət sifarişimiz təsdiq edilib və o istiqamətdə lahiyələrimiz var, bu işləri icra edirik. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasının mədənçilik sənayesinin inkişaf etdirilməsi ilə bağlı müəyyən tədbirlər nəzərdə tutmuşuq və düşünürəm ki, muxtar respublikanın iqtisadi inkişafında mədənçilik sənayesi çox böyük rol oynayacaq.

***Əli Vəliyev – Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin rəisi:*** – Naxçıvan Muxtar Respublikasının mineral-xammal resurslarının ümumi balansında qeyri-filiz faydalı qazıntılar və tikinti materialları mühüm yer tutur. Bunların arasında Duzdağ və Nehrəm daşduz yataqları, Nehrəm qrupu dolomit yataqları, Buzqov, Şahtaxtı, Qarabağlar travertin yataqları və digərləri böyük əhəmiyyət kəsb edir. Çoxsaylı mis, molibden, kobalt, volfram, manqan, alüminium, maqnezium, qurğuşun, sink, sürmə, mərgümüş və digər metal faydalı qazıntı yataqlarının da bura əlavə edə bilərik. Uzun illər ərzində Gümüşlü və Parağaçay yataqlarından qurğuşun, sink və molibden filizləri çıxarılmışdır. 1970-ci illərin əvvəllərində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Nehrəm dolomit və Nehrəm daşduz yataqlarını birgə istismara cəlb etməklə maqnezium, xörək duzu, xlor, susuzlaşdırılmış soda və digər məhsulların alınması məqsədilə mühüm bir layihə hazırlanmışdır. Bu yataqların bazasında illik məhsuldarlığı 3-6 milyon ton filiz olan iki mədənin, 3 zavodun və Daşkəsənə bənzər iri bir şəhərin tikintisi nəzərdə tutulmuşdur. Bu kompleksin tikintisi Sovet İttifaqı Kommunist Partiyasının XXIV qurultayının direktivlərinə salınmışdır. Lakin o dövrdə nəzərdə tutulan işlərin həyata keçirilməsi bəzi qüvvələrin təsiri altında mümkün olmamışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Ümummilli Liderimiz Heydər Əliyev respublikanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafında yeni dövrün başlanğıcını qoymuşdur. Hazırda bu işləri onun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Bu gün keçirilən biznes-forum da iqtisadiyyatın inkişafına, rifahın yüksəlməsinə yönələn tədbirlər sırasındadır. Ümid edirəm bu biznes-forum həm sahibkarlar, həm də Naxçıvan Muxtar Respublikasında bu sahədə fəaliyyət göstərənlər üçün əhəmiyyətli oldu.

***Hacı Ələsgərov – “Himal Holdinq”in Prezidenti:*** – Naxçıvan Muxtar Respublikasında ilk dəfə idi ki, yerin təki hərraca çıxarılırdı. Sevincliyəm ki, hərracın qalibi, “Himal Holdinq”in Beton məmulatları istehsalı zavodu oldu. İlkin start qiymətinin, təqribən, 2 qatı qədər qiymət təklifi ilə qalib elan olunduq. Bu gündən etibarən qanunun tələb etdiyi qaydada lazım olan sənədlər hazırlanıb, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunacaq. Daha sonra yataqda müəyyən işlər həyata keçiriləcək. Ümid edirəm yaxın gələcəkdə, qum yatağından əldə olunan xammal ehtiyatı Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra Azərbaycanın digər bölgələri ilə yanaşı, xüsusilə hazırda geniş quruculuq işləri aparılan işğaldan azad olunmuş ərazilərə də ixrac olunacaq.



***Elçin Məcidov – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından istifadə Agentliyinin İdarə Heyəti sədrinin müavini:*** – Hərrac Babək və Culfa rayonlarında yerləşən Qoşaquldağ qum yatağı üzrə keçirildi, rəqabətli formada baş tutdu. Hərracda qalib şirkətə bundan sonrakı fəaliyyətində uğurlar arzulayırıq. Muxtar respublikada növbəti yer təki sahələrinin hərrac qaydasında keçirilməsi prosesi davam etdiriləcək.

***Elnur Həsənli – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından istifadə Agentliyinin əməkdaşı:*** – Bu gün Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq dağmədən sahəsində mövcud imkanlar və perspektivlər mövzusunda biznes-forum təşkil edildi. Biznes-forumun əsas məqsədi Naxçıvan Muxtar Respublikası ərazisində faydalı qazıntı yataqlarına dair ümumi məlumatın verilməsi, bu sahəyə sahibkarların investisiya yatırımlarının təşviqi, həmçinin hazırda qüvvədə olan Azərbaycan Respublikasının qanunvericilik aktları barəsində yer təkinə münasibətdə məlumatların verilməsi və qanunvericilik aktlarından irəli gələrək yerin təkindən istifadə növlərinə dair icazə sənədlərinin alınması ilə bağlı informasiyaların çatdırılması idi. Bu sahədə səmərəli istifadənin təşkili məqsədilə sahibkarların maarifləndirilməsi üçün ətraflı şəkildə məlumatlar verməyə çalışdıq.

**✍ Gülcamal TAHİROVA**

## Media haqqında qanunvericilik mühüm vəzifələr müəyyənləşdirir

*Ölkəmizdə media islahatlarının “yol xəritəsi” kimi dəyərləndirilən Azərbaycan Respublikasının “Media haqqında” 2021-ci il 30 dekabr tarixli Qanunu Konstitusiyamızda təsbit olunan insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquq və azadlıqların dövlət təminatını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.*



Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən jurnalistlərin qanuni peşə fəaliyyətinə maneolma, yəni zor tətbiq etməklə və ya belə zor tətbiqetmə hədəsi ilə onları məlumat yaymağa və ya məlumat yaymaqdan imtinaya vadaretmə cərimə və ya islah işləri ilə cəzalandırılır. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə isə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə islah işləri ilə və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır. İnzibati xətalar qanunvericiliyinə əsasən isə jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsinə görə müəyyən məbləğdə cərimə edilir. Jurnalistin peşə fəaliyyətinə maneolma isə o halda məsuliyyət yaradır ki, onun jurnalistik fəaliyyəti qanunvericiliyin yol verdiyi çərçivədə həyata keçirilmiş olsun.

İnzibati xətalar qanunvericiliyinə əsasən media subyektinin redaksiyası (məsul redaktoru) və jurnalistlər tərəfindən media sahəsində fəaliyyət azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə, yəni açıqlanması qanunla qadağan edilən informasiyanı yaymağa və ya informasiya mənbəyini qanunla yol verilməyən hallarda açıqlamağa görə fiziki, vəzifəli və hüquqi şəxslər inzibati məsuliyyət daşıyırlar.

Cinayət qanunvericiliyinə əsasən böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, mediada və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında yayma cinayət məsuliyyətinə səbəb olur. Təhqir, yəni kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, mediada və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltma da cərimə, ictimai işlər, islah işləri və ya müəyyən müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Mülki qanunvericiliyə əsasən fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin.

Mediada hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş, yayımlanmış fiziki şəxsin həmin mediada öz cavabının dərc edilməsi, yayımlanması hüququ vardır. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin. Bu maddənin fiziki şəxsin işgüzar nüfuzunun müdafiəsinə dair qaydaları müvafiq olaraq hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq edilir.

Ölkəmizdə akkreditasiya olunmuş xarici jurnalistlərin və digər xarici media nümayəndələrinin hüquqi statusu və peşə fəaliyyəti də Azərbaycan Respublikasının normativ-hüquqi aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir. Media subyekti redaksiyasının loqotipi (emblemi) olmalıdır. Media subyektinin redaksiyası yalnız bir loqotipdən (emblemdən) istifadə edə bilər. Loqotip (emblem) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan Media Reyestrinə daxil edilir.

“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunun tələbinə əsasən internet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi həmin informasiya ehtiyatında yayılması qadağan edilən terrorçuluğun təbliği və maliyyələşdirilməsi, terrorçuluğun həyata keçirilməsinin üsul və vasitələri, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə yönələn açıq çağırışlar, psixotrop maddələrin və onların prekursorlarının hazırlanma və ya istifadə üsulları və qaydası, onların qanunsuz əldə edilməsi yerləri, habelə təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar və sair informasiyaların yerləşdirilməsinə yol verməməlidir.

Ümumilikdə isə media subyektləri və jurnalistlər cəmiyyətdəki ictimai, siyasi, sosial və iqtisadi vəziyyət haqqında, dövlət orqanlarının, bələdiyyələrin, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə düzgün informasiya almaq hüququna malikdirlər. Bu hüquq qanunla müəyyənləşdirilmiş hallardan başqa məhdudlaşdırıla bilməz. Həmçinin media subyekti tərəfindən fiziki şəxsin şərəf və ləyaqətini, fiziki və hüquqi şəxsin işgüzar nüfuzunu ləkələyən, böhtan və təhqir xarakterli məlumatlar yayıldıqda, fikirlər təhrif olunduqda fiziki şəxsin özünün və ya nümayəndəsinin, hüquqi şəxsin rəhbərinin, yaxud səlahiyyətli nümayəndəsinin həmin media subyektində 1 (bir) ay müddətində cavab vermək, habelə media subyektindən həqiqətə uyğun olmayan məlumatın təkzib olunmasını, düzəliş verilməsini, üzr istənilməsini tələb etmək, yaxud birbaşa məhkəməyə müraciət etmək hüququ vardır.

Bəs telefon danışıqları məhkəmədə sübut kimi qəbul oluna bilərmi? Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2015-ci il 11 fevral tarixli Qərarına əsasən şəxs tərəfindən əqdin qarşı tərəfinin bildirdiyi irada ifadələrini əks etdirən danışıqların həmin münasibət barəsində yaranan hüquqi mübahisənin həllində istifadə olunması öz-özlüyündə şəxsi toxunulmazlıq hüququna qəsd kimi qiymətləndirilə bilməz. Belə ki, həmin danışıq və yazışmalar əqdin tərəfləri üçün sirr deyildir və mahiyyət etibarilə aralarındakı hüquqi münasibətlə bağlı bir-birlərinə yazılı mətn halında çatdırdıqları iradə ifadələrindən və bildirişlərindən fərqlənmir. Bu baxımdan başqa şəxslə deyil, birbaşa əlaqədar tərəflər arasında olan danışıqların mülki mübahisənin həlli zamanı istifadə edilməsi, yəni telefon danışıqları mülki işlərdə, öhdəlik xarakterli məsələlərdə sübut kimi qiymətləndirilə bilər.

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri***

## Naxçıvanda aviakassaların iş vaxtı dəyişib



Naxçıvanda aviakassaların iş vaxtı daha 2 saat artırılıb. Sərnişin sıxlığı nəzərə alınaraq artıq muxtar respublika ərazisindəki bütün aviakassalar səhər saat $07^{00}$-dan axşam saat $19^{00}$-dək fəaliyyət göstərəcək. Bu barədə Naxçıvan Beynəlxalq Hava Limanından bildirilib. Qeyd edək ki, hazırda biletlərin onlayn satışı da həyata keçirilir.

AZAL-ın rəsmi saytında aviabiletlərin əldə edilməsi haqqında ətraflı məlumatı özündə əks etdirən videotəlimat yerləşdirilib.

## *“Suya qənaət edək!”* aksiyası davam etdirilir



Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən start verilən aksiya istifadə edilən hər damcı suyun dəyərinin bilinməsi, insanlarda suya qənaət vərdişlərinin aşılanması, maarifləndirmə işlərində könüllülərin rolunun artırılması məqsədini daşıyır. Aksiya çərçivəsində Naxçıvan şəhər Heydər Əliyev prospektindəki “Gənclik” Mərkəzinin yaxınlığında məlumat tenti yaradılmış və könüllü gənclər tərəfindən əhaliyə maarifləndirici məlumatların verilməsi həyata keçirilmişdir. Eyni zamanda məlumat tentində yaradılmış ekran vasitəsilə suya necə qənaət etmək lazım olduğunu izah edən videoçarxlar nümayiş etdirilmişdir.

Aksiyada buklet və broşür paylanılıb, vətəndaşlarla geniş maarifləndirici söhbətlər aparılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru vəzifəsinə yeni təyinat olub

Aidə Cəlilzadə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru vəzifəsinə təyin edilib. Bununla bağlı Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb. Qeyd edək ki, Cəlilzadə Aidə Məhəmməd qızı 1987-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Babək qəsəbəsində anadan olmuşdur. 1993-cü ildə Babək şəhər tam orta məktəbinin birinci sinfinə qəbul olmuş, 2004-cü ildə əla qiymətlərlə həmin məktəbin məzunu olmuşdur.

Aidə Cəlilzadə 2004-2005-ci illərdə FLEX (Gələcək Liderlər Mübadiləsi) proqramı çərçivəsində Amerika Birləşmiş Ştatlarında təhsil almışdır. Təhsil müddətini tamamladığı və Ohio Proficiency Test adlı dövlət imtahanından uğurla keçdiyi üçün ABŞ-ın qanuni diplomunu almağa haqq qazanmış, medal və sertifikatlarla təltif olunmuşdur. 2004-2009-cu illərdə Naxçıvan Dövlət Universitetinin İngilis dili ixtisası üzrə tələbəsi olmuş, universiteti əla qiymətlərlə bitirmişdir. 2006-cı ildə ali məktəb tələbələrinin XI Respublika fənn olimpiadasında ingilis dili üzrə I yerin qalibi olmuş və Azərbaycan Respublikası Təhsil Nazirliyinin diplomu ilə təltif olunmuşdur. 2006-2009-cu illərdə Naxçıvan Dövlət Universitetinin Tələbə-Elmi Cəmiyyətinin sədri olmuşdur. 2009-2012-ci illərdə Naxçıvan Dövlət Universitetinin Pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistr təhsili almış və əla qiymətlərlə məzun olmuşdur. 2009-2011-ci illərdə Naxçıvan Dövlət Universiteti Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində akademik məsləhətçi vəzifəsində çalışmışdır. 2012-2020-ci illərdə Naxçıvan şəhər 4 saylı Seçki Dairəsinin üzvü olmuşdur. 2011-ci ildən Naxçıvan Dövlət Universitetinin İngilis dili və tərcümə kafedrasının müəllimi, 2020-ci ildən baş müəllimidir.

2014-cü ildən Naxçıvan Dövlət Universitetinin 5708.01 – German dilləri üzrə dissertantıdır. 2018-ci ildən filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün “Böyük Britaniya və Amerika media diskursunda abreviaturaların struktur-semantik və funksional xüsusiyyətləri” adlı dissertasiya üzərində işləyir. Bir neçə publisistik və 20 elmi əsərin, monoqrafiya və tərcümənin müəllifidir. Elmi əsərlərdən biri Almaniyada dərc olunmuş elmi məqalə, 2-si beynəlxalq, 1-i isə respublika mahiyyətli konfrans materialıdır.

Aidə Cəlilzadə bir sıra regional, respublika və beynəlxalq konfranslarda iştirak etmiş, beynəlxalq layihə və təlimlərin, ixtisasartırma və onlayn kursların iştirakçısı olmuş və nailiyyətlərinə görə sertifikatlara layiq görülmüşdür. “Gəmiqaya qayaüstü rəsmləri” kitabını Azərbaycan dilindən ingilis dilinə tərcümə etmişdir. 2022-ci ildə IELTS imtahanında iştirak etmiş və 7.0 (danışıq 8.0) bal toplamışdır. 2020-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin VI çağırış deputatı, 2021-ci ildən Avropa Şurası Yerli və Regional hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin üzvü, Naxçıvan Dövlət Universiteti SAT imtahan mərkəzinin koordinatorudur.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Çağırış kampaniyası davam edir



Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin Naxçıvan şəhər idarəsində keçirilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsində canlarından keçmiş soydaşlarımızın, qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə baş idarənin rəis müavini vəzifələrini müvəqqəti icra edən polkovnik-leytenant Sultan Zamanov açıb. Diqqətə çatdırılıb ki, Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu ilə bağlı başlatdığı işlər onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentimizin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan möhkəm nizam-intizamı, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordusu ilə fəxr edir.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-mühafizə Orqanları Veteranları Şurasının sədri, şair Firudin Süleymanov qeyd edib ki, bu gün Azərbaycan xalqı, Şanlı Azərbaycan Ordusu, Ali Baş Komandanımız Prezident cənab İlham Əliyevin səriştəli rəhbərliyi, uzaqgörən siyasəti ilə Qarabağda yeni bir tarix yazır. Daha sonra Firudin Süleymanov şəhidlərə həsr etdiyi bir şeirini səsləndirib.

Azərbaycan Vətən Müharibəsi Veteranlar və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının Naxçıvan şəhər şöbəsinin sədri, Səədrək döyüşlərinin qazisi Zahid Cəfərov çağırışçılara uğurlar arzulayıb. Vurğulayıb ki, ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların hazırlanmasından, aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu səbəbdən də çağırışa hazır olan gənclərimizin daim mübariz olması, Vətənin keşiyində ayıqsayıq dayanması qüdrətli Azərbaycan Ordusunun əsas təminatçısıdır.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin Vətən Müharibəsi İştirakçıları və Şəhid Ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov, Vətən müharibəsi qazisi Arif Niftəliyev çağırışçılara öz ürək sözlərini çatdırıblar. Çağırışçılar adından Hüseyn Quliyev çıxış edərək xidmətini layiqincə yerinə yetirəcəyinə, nümunəvi əsgər olacağına söz verib.

Sonda Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş idarəsinin rəisi vəzifələrini müvəqqəti icra edən polkovnik-leytenant Anar Aqilov çağırışçılara öz tövsiyə və tapşırıqlarını çatdırıb, iştirak edən valideynləri bu münasibətlə təbrik edib.

Ardınca çağırışçılar Vətən borclarını yerinə yetirmək üçün hərbi xidmətə yola salınıb.

✍ **Məcid RƏŞADƏTOĞLU**

### *İtmişdir*

Babək rayon, Şıxmahmud kəndində yaşamış Hümbətova Həqiqət Qulu qızının adına olan 461[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Məzrə kəndində yaşamış Abbasov Ərrəhman Tağı oğlunun adına olan JN-186[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Nehrəm qəsəbəsində yaşamış Hüseynova Şərəf Məhəmməd qızının adına olan 722[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Hüseynov Azad Nuriddin oğluna məxsus Şərur şəhəri, Nəriman Nərimanov küçəsi, 6/14 ünvanında yerləşən mənzilin 725[a] nömrəli texniki pasportu və qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 414